Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

# REGİON

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

№ 236 (1364) 22 dekabr - 23 dekabr 2016-cı il

# AĞ GÜNLƏRİN ÜNVANI

(əvvəli ötən saylarımızda)

**Elə bugünlər də ötən ilə yekun vuran və bu məqsədlə hesabat yığıncağı keçirən şəhər rəhbərliyi tədbir iştirakçılarına real vəziyyəti açıqlayarkən bildirmişdi ki, Ağcabədi şəhərinin enerji təminatı rayon icra hakimiyyəti başçısının birbaşa nəzarəti altındadı. Bu da həmin sahəyə cavabdeh olan şəxslərin məsuliyyətinin daha da artmasına öz təsirini göstərir. Qurulan yarımstansiyalar, dəyişdirilən transformatorlar, yeni xətlərin çəkilməsi planlı şəkildə aparıldığı üçün şəhər sakinlərinin elektrik təminatından ötən illərdə etdikləri narazılıqlar bu gün demək olar ki, minimuma endirilib. Bu da məhz əvvəldə vurğuladığımız tələbkarlığın və diqqətin bariz nümunəsidir.**

Təbii ki, Ağcabədi şəhərində qaz, işıq məsələləri ilə yanaşı, şəhər əhalisinin suya olan tələbatının ödənilməsi də həmişə gündəmdə olubdu. Bu məsələdə rayon su kanalı idarəsinin Ağcabədi şəhəri üzrə xüsusi xidmət sahəsi fəaliyyət göstərir. Həmin xidmət sahəsində 1400 əhali abonenti yaşayır. Onların suya olan tələbatını ödəmək üçün konkret tədbirlər planı işlənib hazırlanıb. Məhz həmin plana uyğun olaraq, 2016-cı ilin birinci yarısına diqqət yetirsək, onda görərik ki, nəzərdə tutulan plan artıqlaması ilə yerinə yetirilmişdir. Əhali onlara satılan suyun dəyərini necə deyərlər, ödəyə bilmiş və bu da xidmət sahəsi ilə sakinlər arasında olan qarşılıqlı münasibətin ümumi işə olan bir köməyidir.

Obrazlı ifadə etsək, yaxşı xidmət insanlar tərəfindən öz haqqını ala bilmişdi. Ümumiyyətlə isə Ağcabədidə bugünün özündə də bu xidmət sahəsi öz işini uğurla davam etdirir.

Xatırlatmaq yerinə düşər ki, ötən hesabat ilində Ağcabədi şəhərinin Heydər Əliyev və Üzeyir Hacıbəyli prospektlərində, Füzuli, Qarabağ, Tofiq İsmayılov, Həzi Aslanov, Səməd Vurğun və Xəlfəreddin küçələrində mərkəzi su xətləri tam şəkildə təmin olunmuş, Hüsü Hacıyev, Etibar İsmayılov, 20 Yanvar və Mehdi Hüseyn küçələrində də mövcud olan su xətlərinin istismar qabiliyyəti daha da artırılmışdı. Şəhərin müəyyən hissələrində, xüsusilə Heydər Əliyev prospektində, Səməd Vurğun, Etibar İsmayılov və İsmət Qayıbov küçələrində isə mövcud artezian quyularının nasosları təmir olunmaqla həmin ərazidə yaşayan insanların mənzillərinə su xətləri çəkilmişdi və bu proses artıq bu gün də davam etdirilir.

**"...Azərbaycan müasir dövlətdir, iqtisadiyyatımız bazar iqtisadiyyatı prinsipləri üzərində qurulubdur. Amma, eyni zamanda, biz sosial dövlətik. Sosial dövlət o deməkdir ki, insan amili, Azərbaycan vətəndaşı, onun maraqları, onun rifahı siyasətimizin mərkəzindədir".**

***Azərbaycan Respublikasının Prezidenti***
***İlham Əliyev***



Dəfələrlə Ağcabədi şəhəri ilə bağlı yazdığımız yazılarda vurğulamışdıq ki, şəhərdə yaşıllığa, səliqə-səhmana xüsusi diqqət yetirilir. Bunu şəhərin qonağı olan hər kəs görüb müşahidə edə bilər. Bizim bu vurğuladığımız məsələ ilə bağlı şəhər rəhbərliyinin fikirləri də dediklərimizi bir daha sübut edir. Əgər icra hakimiyyəti başçısının Ağcabədi şəhər Dairə Ərazi nümayəndəsi Aqil Əliyevin fikirlərinə istinad etsək, onda görərik ki, ötən il Ağcabədi şəhər Yaşıllaşdırma sahəsi tərəfindən şəhərin küçə və prospektlərində xeyli işlər görülmüşdür. Yeni küçə və prospektlərin kənarlarındakı mövcud yaşıllıqlar qorunmaqla yanaşı, onların lazım olan yerlərdə təzələnməsi, artırılması işləri uğurla aparılmış və nəticədə Heydər Əliyev və Üzeyir Hacıbəyli prospektlərində, Nəsimi, Nəriman Nərimanov, Səməd Vurğun, Füzuli, Xan Şuşunski, Tofiq İsmayılov, İsmət Qayıbov, Qarabağ, Xətai, Mütəllim Mütəllimov və bir çox küçələrdə təqribən 2800 ədədə yaxın sərv, 28 ədəd tuya ağacları, 900 ədəd evonos kolu, təqribən 17000 ədəd gül və çiçək kolları əkilmişdi. Bütün bu yaşıllıq zolaqlarının və onun rəngarəngliyini göz önünə gətirəndə şəhərin ümumi mənzərəsinin xoş ahəngi də təbii ki, təkcə sakinlərə deyil, həm də qonaqlara xoş təsir bağışlayır.

Bu gün Ağcabədi şəhərində mövcud bələdiyyə torpaqlarına qarşı da böyük diqqət və həssaslıqla yanaşılır. Bu torpaqların təkcə istifadəyə verilməsi deyil, həm də onun qorunması istiqamətində də köklü işlər görülür. Ağcabədi şəhər bələdiyyəsinin nəzarətində olan 6000 hektardan artıq ehtiyat fond torpağı, eləcə də perspektiv inkişaf üçün nəzərdə tutulan 18 hektar fond torpağı bu gün sakinlərin həm sosial iqtisadi inkişaf baxımından, həm də bütövlükdə mənzil tikintisi baxımından güvəndikləri bir ünvandı. Konkret ifadə etsək, bu torpaqlar həm şəhərsalmada, həm də sakinlərin müəyyən tələbatlarının ödənilməsində planlı şəkildə istifadə üçün nəzərdə tutulubdu. Bundan başqa şəhərin torpaq mülkiyyətçiləri rayonun ərzaq təminatına da öz töhfələrini verirlər.

Ümumiyyətlə isə Ağcabədi şəhərində torpağın hər qarışı yüksək dəyərləndirilir və insanlar sakini olduqları Ağcabədini bütün gözəllikləri ilə birlikdə sevdikləri kimi onu daha da gözəlləşdirməyi özlərinin əsas işi hesab edirlər.

Günümüzün gerçəkliyi göstərir ki, bütün dünyada olduğu kimi, Azərbaycanda, o cümlədən Ağcabədidə də həyat öz axarı ilə davam edir, insanlar müstəqil, demokratik bir ölkənin vətəndaşları kimi öz üzərlərinə düşən vəzifələrin öhdəsindən gəlməyə çalışırlar. Təbii ki, bu vəzifələr içərisində qurub-yaratmaq, elm, təhsil, səhiyyə, mədəniyyət sahələrini inkişaf etdirmək, idmana diqqət ayırmaq, gənc nəsildə vətənpərvərlik hisslərini aşılamaq ön sırada dayanır. Bax, elə Ağcabədi şəhər ərazi icra nümayəndəliyinin rəhbəri Aqil Əliyev də rayon icra hakimiyyətinin başçısı Şahin Məmmədovun, eləcə də icra aparatı kabinetinin ona etimadından, verdiyi tapşırıqlardan dürüst və qətiyyətli qərarlar çıxarır. Nəticədə də Ağcabədi şəhərinin mənzərəsi dəyişir və o ağ günlərin Azərbaycan coğrafiyasında ünvanlarından birinə çevrilir.

**Bəli, Regionların İnkişafına Dair Dövlət Proqramının yerinə yetirilməsində Azərbaycan Prezidenti İlham Əliyev cənablarının tələb və tapşırıqlarının vaxtında və birmənalı şəkildə icra edilməsində Ağcabədi nümunəsi göz önündədi.**

***Əbülfət MƏDƏTOĞLU***



AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ